# Əhaliyə göstərilən poçt xidmətləri yaxşılaşdırılır

2015-ci ili uğurla yola salan xildmət təşkilatlarından biri də «Azərpoçt» MMC-nin Qəbələ poçt filialının kollektivi olmuşdur. Kollektiv il ərzində poçt xidmətlərini müvəffəqiyyətlə icra etmişdir. Bu filialın ərazisində 2 şəhər, 27 qəsəbə və kənd poçt şöbələri, 1 müştəri xidməti şöbəsi fəaliyyət göstərir və onların vasitəsilə əhaliyə idarə, müəssisə və təşkilatlara, digər korporativ qurumlara xidmət göstərir. Filial şöbə və qurumlar vasitəsilə poçt, maliyyə, kommersiya, o cümlədən açıqca, məktub, banderol, bağlama, pul köçürmələri, teleqramların qəbulu, göndərilməsi, çatdırılması, mətbuat abunəsi, satışı, çatdırılması şəhərlərarası telefon danışıq, qaz, su, elektrik enerjisi haqlarının yığımı və müxtəlif kommersiya xidmətlərinin göstərilməsi əməliyyatları aparır. Poct filialının rəisi Rauf Kərimovdan aldığımız məlumata görə filialın kollektivi ötən il ərzində proqnoz tapşırıqlarını artıqlaması ilə yerinə yetirmişdir. Belə ki. 240.200 manata qarşı 240.375 manatlıq poçt xidməti göstərilmişdir ki, bu da əvvəlki illə müqayisədə 14.328 manat çoxdur.

Filial Dünya Bankının krediti hesabına həyata keçirilən «Maliyyə Xidmətlərinin İnkişafı» layihəsi çərçivəsində struktur islahatlar aparmışdır. Belə ki. poçt filialının və poçt şöbələrinin avtomatlaşdırılması prosesi həyata keçirilmiş, bütün xidmət və əməliyyatların «Colvir» və avtomatlaşdırılmış korporativ informasiya sistemlərində aparılması təmin olunmuşdur. Bundan əlavə poçt şöbələrinin texniki avadanlıqlarla təminatı yaxşılaşdırılmışdır. Poçt şöbələrində 30 ədəd «Domen» kompyuter dəsti, 7 ədəd faks aparatı, 11 ədəd surətçıxarma aparatı, 31 ədəd elektron tərəzi quraşdırılmışdır. 2 ədəd nəqliyyat vasitəsi ilə əhaliyə, müəssisə və təşkilatlara, korporativ qurumlara, poçt və digər sosial müdafiə fondu, vergi, bələdiyyə pulları «Azərsel», «Baksell», «Narmobil» danışıq və abunə pulları yığımı və digər xidmətlər göstərilmişdir. 2015-ci ildə göndərilən poçt göndərişlərinin həcmi xeyli artmışdır. Ötən il bağlamaların sayı 713 ədəd, məktubların sayı 53162 ədəd, pul köçürmələrin sayı 29079 ədəd, teleqramların sayı 859 ədəd olmuşdur. Elektrik enerji haqları yığımı 2.311.355 manat, qaz istismarı haqqının yığımı 1.926.200 manat, su haqqının yığımı 70.055 manat, şəhərlərarassı telefon danışıqları və abunə haqları yığımı 110.645 manat, DYP cərimə pulları 161.749 manat yerinə yetirilmişdir.

Kənd poçt şöbələrinin fəaliyyətinin yaxşılaşdırılmasına da xüsusi qayğı və diqqət yetirilir. Son illər ərzində rayonun bir sıra kəndlərində poçt şöbələri üçün yeni, müasir binalar tikilib istifadəyə verilmişdir. Hazırda Məlikli, Zalam, Yenikənd, Quşlar, Bunud, Bayramkoxalı, Zarağan və Böyük Əmili kənd poçt şöbələri üçün yeni binaların tikilməsi nəzərdə tutulmuşdur. Bununla əlaqədar olaraq lazımi sənədləşmə işləri başa çatdırılaraq aidiyyatı üzrə «Azərpoçt» MMC-yə göndərilmişdir.

«Poçt haqqında» qanuna əsasən «Azərpoct» MMC və Qəbələ poçt filialı tərəfindən göstərilən xidmət növləri ilə bərabər bir sıra yeni poçt maliyyə xildmətlərinin göstərilməsi üçün aşağıdakı işlər görülmüşdür:

Poçt hesabların açılması və idarə olunması.

Pul köçürmələrin həyata keçirilməsi.

Maliyyə təsərrüfatında müxtəlif hesabların açılması.

Poçt əmanətlərinin qəbulu.

Ödəniş vasitələrin, o cümlədən debet və kredit kartların, poçt çeklərin buraxılması.

Müştərinin sifarişi və vəsaiti hesabına xarici valyutaların alqı-satqısı.

Nəqd pulun və digər qiymətlərin inkassasiyası.

Hal-hazırda poçt filialında və poçt şöbələrində pul köçürmələrinin həyata keçirilməsi, müxtəlif hesabların açılması, əhali hesabına valyuta alqı-satqısı «VESTERN YUNİON» beynəlxalq pul köçürmələrinin aparılması, Dövlət Yol Polisi cərimələrinin qəbulu, «Atəşgah» və «Atasığorta» şirkətləri ilə sığorta aparılmasını həyata keçirir.

Qəbələ poçt filialının əsas məqsədi post-maliyyə, həmçinin kommersiya xidmətləri üzrə son texnologiyaların tətbiq edilməsi yolu ilə göstərilən xidmətlərin səmərəliliyini və operativ göstəricilərini yaxşılaşdırmaqdan ibarətdir.

**Aslan CƏLİLOV.**



## Unutsaq unudularıq

# Polkovnik-leytenant İlham Məmmədov

Qəzetimizin 11 yanvar 2016-cı il tarixli sayında Qarabağ uğrunda savaş zamanı Azərbaycan ordusunun uğurla reallaşdırdığı ən böyük əməliyyatlardan olan Horadiz (Füzuli rayonunda qəsəbə) əməliyyatı haqqında məlumat verilmişdir. Bir daha xatırladırıq ki, 1994-cü ilin 5—6 yanvar tarixlərində Azərbaycan ordusu Fizuli və Cəbrayıl rayonu istiqamətində çox uğurlu əməliyyat keçirərək 22 yaşayış məntəqəsini düşmənin işğalından azad etmişdi. Həmin döyüşlərdə Azərbaycan ordusunun, daxili qoşunların və sərhəd xidmətinin zabit və əsgərləri misilsiz şücaət göstərmiş, cəmi bir sutka ərzində yuxarıda qeyd etdiyimiz kimi 22 yaşayış məntəqəsini, 20 min hektardan çox ərazini düşmən tapdağından azad etmişdilər. Həmin döyüşlərdə həmyerlimiz artilleriya polkovnik-leytenantı mərhum İlham Məmmədov da igidliyi yüksək döyüş və komandirlik bacarığı ilə fərqlənən zabitlərdən olmuşdur. Ötən yazımızda vəd etdiyimiz kimi bu yazıda İlham Məmmədovun döyüş yolu haqqında oxuculara məlumat veririk.

İlham Məmmədhəsən oğlu Məmmədov 1955-ci ildə rayonumuzun Hacıalılı kəndində anadan olmuşdur. Hələ Hacıalılı kənd orta məktəbində oxuyarkən müəllimləri İlhamda hərb sənətinə dərin maraq olduğunu hiss etmişdilər. O ibtidai hərbi hazırlıq dərslərindən, texniki fənlərdən həmişə əla qiymətlər alırdı. O vaxtki Azərbaycan Dövlət Politexnik İnstitunda (indiki Texnik Universitet) hərbi kafedrada hərb elminə böyük həvəslə yiyələnirdi gənc İlham. Politexnik İnstitutu muhəndis ixtisası ilə bitirən İlham Məmmədova eyni zamanda Zaqafqaziya Hərbi Dairəsi komandanının sərəncamı ilə artilleriya leytenantı hərbi rütbəsi verilir. Elə 1992-ci ildə də İlham Məmmədov könüllü olaraq yenicə təşkilatlanmağa başlayan Azərbaycan Milli Ordusunda xidmətə leytenant rütbəsi ilə başlayır. Ancaq böyük hərbi istedad və komandirlik qabiliyyətinə görə qısa zamanda polkovnik-leytenant rütbəsinə qədər yüksəlir. İlham Məmmədovun yüksək hərbi bacarığına görə komandanlıq və Milli Müdafiə Nazirliyi bütün növbəti hərbi rütbələri ona vaxtından əvvəl vermişdir.

Bacarıqlı zabit Iham Məmmədov Qarabağ uğrunda bir çox döyüşlərdə müvəffəqiyyətlə iştirak etmişdir. Onun komandirlik etdiyi artilleriya taborunun əsas vəzifəsi düşmənin artilleriya qurğularını sıradan çıxarmaq, kommunikasiyanı məhv etmək, vurulan ardıcıl top və minomyot atəşi sayəsində düşməndə çaşqınlıq və qorxu yaratmaq, bir sözlə hərbi dildə deyildiyi kimi artilleriya hazırlığı aparmaq idi. İlham Məmmədovun komandiri olduğu tabor bu tapşırığın öhdəsindən bacarıqla gəlirdi. Piyada hücumuna təhlükəsiz yol İlham Məmmədovun taburunun əsas şüarı idi.

1994-cü ilin yanvarında Beyləqan istiqamətindəki döyüşlər və Horadiz qəsəbəsi uğrunda döyüşlər İlham Məmmədovun komandirlik xidmətinin şanlı səhifələridir.

Horadiz istiqamətində düşmən xeyli möhkəmlənmişdi. Ancaq komandanlığın tapşırığı qəti idi. Horadiz və ətraf yaşayış məntəqələri düşməndən azad edilməlidir. Bu strateji əhəmiyyətli yaşayış məntəqəsi düşmənin əlində qaldıqca Beyləqan və digər ətraf rayonlara da böyük təhlükə yaranırdı. Yanvarın 4-də briqada komandiri alay və tabur komandirlərini, xidmət rəislərini müşavirəyə çağırdı. Horadiz əməliyyatının bütün təfərrüatı təhlil olundu. Birinci növbədə düşmənin artilleriya qurğuları sıradan çıxarılmalı, aramsız artilleriya zərbələri altında düşmənin hərbi birləşmə və hissələri arasında əlaqə məhv edilməli idi. Bu işi artilleriya həyata keçirməli olur. Ona da artıq briqada qərargah rəisinin artilleriya xidməti üzrə müavini İlham Məmmədov rəhbərlik edirdi. Briqada komandirinin əmri qısa idi: Mayor Məmmədov (həmin vaxt İlham Məmmədov mayor rütbəsində idi), təcili düşmənə artilleriya zərbələri endirərək piyadaların hərəkəti üçün şərait yaradın və mənə məlumat verin.

Artilleriya hazırlığını tam vaxtında başa çatdıran İlham Məmmədov piyadaların hücümunda da öndə gedirdi. Beləliklə Azərbaycan əsgəri o vaxt yanvarın 5-dən 6-na keçən gecə ermənilərin 5-ci briqadasına qarşı çox sürətli hücum əməliyyatı keçirdi. Təkcə bu əməliyyat sübut edir ki, Azərbaycan əsgəri Qarabağ torpağını azad etmək gücündə və qüdrətindədir.

Mərhum ali baş komandan ölkə Prezidenti, ümummilli lider Heydər Əliyev 1994-cü ilin mart ayında Horadiz əməliyyatında iştirak edən hərbi hissələrə baş çəkmiş, əməliyyatların uğurla nəticələnməsinə görə şəxsi heyətə öz təşəkkürünü bildirmiş, bir qrup zabitə vaxtından əvvəl rütbələr vermiş, qiymətli hədiyyələrlə mükafatlandırmışdır. Təltif olunanlar arasında həmyerlimiz polkovnik-leytenant İlham Məmmədov da vardı.

Çox təəssüf ki, amansız xəstəlik İlham Məmmədovu çox sevdiyi zabit peşəsindən vaxtından tez ayırdı. Ordudan tərxis olunan İlham Məmmədov xəstəliyinə baxmayaraq ömrünün sonuna qədər gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsi ruhunda tərbiyə olunması üçün əlindən gələni etdi. İbtidai hərbi hazırlıqdan dərs dediyi Qəbələ şəhər 4 saylı tam orta məktəbində pedaqoji kollektivin, şagirdlərin əsl sevimlisinə çevrildi. İlham Məmmədov onunla tanış olanların hər birində qısa müddətdə xoş təəsürat yaratmağı bacarırdı.

**Qüdrət SƏMƏDOV.**

# Dəyirmi masa

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində 2 fevral Gənclər Günü münasibətilə «Gənclər gələcəyimizdir» mövzusunda dəyirmi masa təşkil olunmuşdur. Tədbirdə bu gün respublikamızda gənclərə diqqət və qayğının artdığından, gələcək nəsillərin savadlı kadr kimi irəli çəkilməsindən danışılmış, milli vətənpərvərlik hisslərinin gənclərdə aşılanmasında muzeylərin rolundan söhbət açılmışdır. Tədbirdə iştirak edən gənclər təbrik edilmiş, onlara işlərində müvəffəqiyyətlər arzulanmışdır.

**«Qəbələ».**